# Şahdağın övladları

## Qədim tarix, unikal dillər, zəngin mədəniyyət

*Dünya dünya olalı bu dağın sehrinə düşüb də onun yaxınlığında qalmağı-yaşamağı istəyənlər az olmayıb. Şahdağ çox şahları, sərkərdələri öz dolaylarından ötürüb: buralardan Şah İsmayıl Xətai də, Nadir şah Əfşar da kimisi ov edərək, kimisi bu yerlərin gözəlliklərinə heyran qalaraq keçib gediblər. Dünyaca məşhur Aleksandr Düma-ata isə haqqında çoxlu əfsanələr dinlədiyi, knyaz Baqrationun öydüyü Şahdağı Quba şəhərindən seyr edib, onu ehtiramla "qarlı azman" adlandırıb.*
*Gələnlər gəlib və gedib, qalanlar isə yalnız onlar olub – bu dağa övlad qədər sədaqətli şahdağlılar...*

**(Əvvəli ötən sayımızda)**



Gün başa çatır... Haputdan bir görünüş

### Ballı-güllü Haput

Qubanın Haput (və ya Hapıt) kəndi – haputluların tarixi vətəni Baş Qafqaz silsiləsinin yamacında qərarlaşıb. Qafqazdilli etnik qrup olan haputluların məskunlaşdığı kəndlərdən biridir. Haputlular Qafqaz mənşəli, Qafqaz xalqlarının Nax-Dağıstan qrupunun Şahdağ yarımqrupuna aid bir xalqdır. Haputlular Qafqaz dil ailəsinə mənsub Haput dilində danışırlar. Özlərini hər adlandırırlar. Kəndin adı Ptolomeyin (II əsr) Albaniya şəhərləri sırasında qeyd etdiyi Xabota ilə əlaqələndirilir. Kənddəki tarix danışan qəbiristanlıq, ziyarətgah və digər məkanlar da bu yaşayış məntəqəsinin qədimliyindən soraq verməkdədir.

Azərbaycan dilinin dialektlərində həm hapıtdı (hapıtmaq), həm də hər sözü "tələsik, vaxtından tez" mənalarında işlənir. Haputlular Qrız etnosuna qohum etnik qrup olub qrız dilinin haput dialektində danışırlar. Onlar tarixi Azərbaycan torpaqlarının, ö cümlədən, Qafqaz Albaniyası dövlətinin qədim sakinlərindəndir. Azərbaycan tarixçisi və etnoqrafı, professor Qiyasəddin Qeybullayev qədim yazılı mənbələrin və etnoqrafik materialların təhlili nəticəsində haputluların da Alban tayfalarının varisi olması qənaətinə gəlib.



Ekspromt Haput natürmortu

Bu gün haputlular Quba, Xaçmaz, Qəbələ, İsmayıllı, Ağdaş rayonlarında və Bakı, Sumqayıt şəhərlərində yaşayırlar. Toplu halında isə əsasən Quba rayonunun Haput, İsmayıllı rayonunun Talıstan, Hacıhətəmli, Haputlu və Mollaisaqlı kəndlərində məskundurlar. Bu kəndlərdə onlar digər sakinlərə nisbətən çoxluq təşkil edir, sayları hətta XX əsrin əvvəllərində çıxdıqları və 2001-ci ilin tədqiqatlarına görə, hazırda faktiki olaraq əlaqəni itirdikləri ana Haputdan belə artıqdır. Mollaisaqlı və Hacıhətəmli kəndlərinin əksər sakini hələ də ana dilində danışırlar, Hapıtlı kəndinin əhalisi isə ünsiyyət dili olaraq azərbaycancaya keçmişlər. Füzuli rayonunun Saracıq kəndində də gəlmə tayfalardan biri haputlulardır.

XIX əsrin 30-40-cı illərindən etibarən dağ əhalisinin artması və böyük patriarxal ailələrin parçalanması dağlıların bir hissəsinin mülayim iqlimli düzən yerlərə miqrasiyasına gətirib çıxardı. Bu, xeyli dərəcədə Haput kəndinin sakinlərini də əhatə etdi. Həmin əsrə aid mənbələrdə onların Ərəş qəzasında Kür sahilində qışlaqlarının olması barədə məlumatlara rast gəlinir. Mənbələrin verdiyi məlumata əsasən, XIX əsrin ortalarında Göyçay qəzasında 736 nəfər haputlu ailəsinin məskunlaşdığı Haputlu Məlikli, Haputlu Mollaqasımlı, Haputlu Gidəyli, Haputlu Nətəs Qacar, Haputlu Hacı Qətəsi, Haputlu İmamlı, Haputlu Kürd kəndləri var idi. Ümumiyyətlə haputlular Quba, Göyçay, Şamaxı və Şəki bölgələrində 60-dək kənd salıblar. Hazırda Azərbaycanda yaşayan haputluların təqribi sayı 10-15 min nəfər arasındadır. 2009-cu ilin siyahıyaalınmasına əsasən, kəndə 505 nəfər əhali yaşayır. 2016-cı ilin dekabr ayına olan məlumata görə Haput



Haputda da Xınalıq mərtəbələri fenomenini xatırladan evlərə rast gəlmək olur...



Haputun sabahı doğma kəndlərini sevən bu gənclərin əlindədir...



Qədim Xınalığın məhşur mərtəbələri...

**BU GÜN HAPUTLULAR QUBA, XAÇMAZ, QƏBƏLƏ, İSMAYILLI, AĞDAŞ RAYONLARINDA VƏ BAKI, SUMQAYIT ŞƏHƏRLƏRİNDƏ YAŞAYIRLAR. TOPLU HALINDA İSƏ ƏSASƏN QUBA RAYONUNUN HAPUT, İSMAYILLI RAYONUNUN TALISTAN, HACIHƏTƏMLİ, HAPUTLU VƏ MOLLAİSAQLI KƏNDLƏRİNDƏ MƏSKUNDURLAR**

kəndində 95 ev var. Kənddə ibtidai məktəb fəaliyyət göstərir.

Əhalinin məşğuliyyəti 1950-ci illərə qədər əkinçilik olub. Sonradan heyvandarlıq kolxozu yaradılıb. Dağ Haput – zaman-zaman ətraf rayonlarda onlarla kənd yaradacaq qədər insan yetişdirmiş, şahlara, xanlara və ümumiyyətlə, üzərinə bəd niyyətlə gələn bütün qüvvələrə qarşı sərt-dönməz, qonaq-qarasına, dostlarına münasibətdə isə səxavətli olan, ilk baxışda çiçəksiz kimi görünən dağlarından hasil edilən balın vaxtilə hətta Moskvadakı ümumittifaq sərgilərində öyüldüyü bu qədim və zəngin kəndin sakinləri bu gün də öz dədə-babalarının qədim adət-ənənələrini yaşatmaqdadırlar. Belə ki, hazırda kənd əhalisi heyvandarlıqla məşğuldur. Sakinlərin əksəriyyəti may ayının 1-15-i arası yaylağa çıxır, çoxusu yayı öz kəndlərində keçirir, qoyun sürülərini pay torpağı kimi ayrılmış otlaqlarda bəsləyirlər. Hər il oktyabrın 1-dən 15-dək isə əsrlər əvvəl olduğu kimi qoyunçu ailələri ciddi hazırlıqlar başa çatdıqdan sonra qışlağa yola düşürlər. Haputluların indi istifadə etdikləri qışlaqlar əsasən Xızıətrafı dağlardadır.

Köçmə heyvandarlıqdan imtina edib kənddə qalan, oturaq həyata üstünlük verən haputlular da başlıca olaraq heyvandarlıqla məşğul olur, diri heyvan satmaqla dolanırlar.

### İki Xınalıq

Xınalıqlılar Azərbaycanın aborigen azsaylı xalqları içərisində özünəxas etnoqrafik özəllikləri ilə seçilir. Qafqaz Albaniyasının qədim tayfalarından olmuş xınalıqlılar Xınalıq dilində danışırlar. Qızıl qaya, Şahdağ, Tufandağ, Xınalıq kimi Qafqaz dağlarının əhatəsində ən uca zirvədə, dəniz səviyyəsindən təqribən 2300 metr yüksəklikdə yerləşən və 5000 illik tarixə malik Xınalıq kəndi dünyada xınalıqların sıx yaşadığı yeganə yaşayış məskənidir. 2009-cu il siyahıyaalınmasında Azərbaycanda 2200 nəfər xınalıqlının yaşadığı qeyd olunub. Yerli əhali öz kəndlərini "Ketş" adlandırır. Onlar bu spesifik adı öz dillərində bir-biri ilə danışarkən işlədirlər. Başqaları ilə ünsiyyət zamanı isə onlar kəndlərini Xınalıq, dillərini xınalıq dili adlandırırlar. Rəvayətlərə görə, Ketş kəndi indiki yerindən bir neçə kilometr aralıda Tufandağın qoynunda yerləşirmiş. Güclü zəlzələ bu kəndi xarabalığa çevirir və əhalinin sağ qalan hissəsi Dəyirman çayı keçərək bugünkü Xınalıq kəndinin bünövrəsini qoyur...

Öz evləri ilə amfiteatrı xatırladan qədim dağ kəndi, burada məskən salmış heyvandar və toxucu xınalıqlılar tarixən təcridolma sayəsində təbiiliyini, özünəməxsus memarlıq quruluşunu və etnik ənənələrini bu günədək əsasən qoruyub saxlamışdır. Belə ki, xınalıqlılar arasında odla fala baxma ənənəsi var. Digər tərəfdən, Xınalığın bir neçə kilometrliyində təbii yanar qaz çıxır və bura yerli əhali tərəfindən "Ateşkah" adlandırılır. Xınalıqlıların öz Atəşgahlarına indiyədək müqəddəs ocaq kimi baxması faktı onların məişətində atəşpərəstliyin mühüm yer tutduğunu deməyə əsas verir. "Qırx Abdal" piri və onunla bağlı rəvayətlər də Xınalığın qədim yaşayış məskənlərindən olduğunu təsdiqləyir. Qədim inamlardan biri də dağlara, o cümlədən, Tufandağa sitayiş hesab olunur. Yerli əhali üçün müqəddəs sayılan ibadət yeri "Pirə-Mıxıx" məhz Tufandağda yerləşir.

Xınalıqda ümumi sahəsi kəndin ərazisindən bir neçə dəfə böyük olan səkkiz qədim qəbiristanlıq yerləşir. Ənənəyə görə burada hər məhəllənin öz ziyarətgahı və


Xınalıq və xınalı dağlardan əsrarəngiz görüntü

## XALQ MEMARLIĞININ ÇOX MARAQLI NÜMUNƏLƏRİ OLAN QƏDİM XINALIQ EVLƏRİNİN İÇİ DƏ, ÇÖLÜ DƏ SADƏLİYİ VƏ ÖZÜNƏMƏXSUSLUĞU İLƏ ZƏNGİN ETNOQRAFİK MUZEYİ ANDIRIR

qəbiristanlığı vardır. Qəbiristanlıqlarda rast gəlinən üç-dörd qatlı məzarlar bu yaşayış məskəninin qədimliyindən soraq verir.

Xınalıqlı şair, aşıq, publisist, poliqlot, pedaqoq mərhum Rəhim Alxas tərəfindən Xınalıq dili üçün tərtib olunmuş kiril əlifbası uzun müddət istifadə olunmuşdur. 2013-cü ilə qədər Xınalıq dilindəki bütün yazılı sənədlər bu əlifba ilə yazılırdı. Hazırda isə sənədlər latın hürufatı əsaslı Xınalıq əlifbası ilə yazılır. Həmin əlifba xınalıqlı dizayner-kompüter proqramçısı Elnur Məmmədov tərəfindən tərtib edilib. Onun tərəfindən Xınalıq əlifbasının kompüter klaviatura proqramı da hazırlanıb...

Müasir Xınalıq iki hissədən ibarətdir. Bunlardan biri hamının məşhur şəkillərdən tanıdığı, zirvədə qərarlaşmış qədim-qayım, təkrarsız Xınalıq, digəri də nisbətən yeni salınmış və bu yerlərdəki başqa kəndlərdən seçilməyən, şəkillərindən heç cür Xınalığın bir parçası olduğu anlaşılmayan yeni, aşağı Xınalıqdır.


Xınalıq muzeyinin qədim eksponatları

Xalq memarlığının çox maraqlı nümunələri olan qədim Xınalıq evlərinin içi də, çölü də sadəliyi və özünəməxsusluğu ilə zəngin etnoqrafik muzeyi andırır. Qədim Xınalıq həm də özünün "mərtəbəliliyi" ilə məşhurdur: burada damlar basılaraq bərkidilmiş xırda çınqıllı torpaqdandır (qumdandır) və yuxarıdakı qonşunun həyəti rolunu da oynayır. Lakin təəssüf ki, bu gün həmin unikal mənzərəni ilk baxışdan heç də hər kəs görə bilmir. Səbəb – Xınalıqda təzə-təzə peyda olmuş şifer və dəmir damlardır! Dövlətin qayğısı sayəsində qoruğa çevrilmiş Xınalığa çəkilən yeni yolun açılışı zamanı burada olmuş Azərbaycan Prezidenti İlham Əliyev unikal məkanın orijinal görünüşünün qorunub saxlanılmasını tövsiyə edib. Bu sahədə real addımların atılmasına başlanıb, damlara torpaq basılması işləri aparıb və... yarımçıq saxlanılıb. Bundan xeyli sonra Xınalığa səfər etmiş yüksək vəzifə sahiblərinin də eyni tapşırığı verdikləri söylənilir. Amma təəssüf ki, hələ də Xınalıqda "şəhər" damları qalmaqdadır.



Yollar yorğunu çarıqlar indi muzeydə dincini alır...



Qədim səhənglərin muzey ömrü

## MÜASİR XINALIQ İKİ HİSSƏDƏN İBARƏTDİR: HAMININ TANIDIĞI, ZİRVƏDƏ QƏRARLAŞMIŞ XINALIQ, DİGƏRİ DƏ NİSBƏTƏN YENİ SALINMIŞ VƏ BU YERLƏRDƏKİ DİGƏR KƏNDLƏRDƏN SEÇİLMƏYƏN AŞAĞI XINALIQ

Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2007-ci il tarixli 2563 nömrəli Sərəncamı ilə "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb ki, bu da Xınalığın özünəməxsusluğunun qorunması istiqamətində mühüm addımların atılmasına yol açır. 1889-cu ildə kəndin ən hündür yerində inşa edilmiş və Qafqazın ən qədim İslam abidələrindən sayılan Əbu Müslüm cümə məscidi dövlət tərəfindən əsaslı təmir edilib. Xınalıqda son illərdə yaradılmış Etnoqrafiya muzeyi buraya gələn turistlərin mütləq baş çəkdikləri ünvanlardandır. Muzeydə həm Xınalığa və həm də bütövlükdə Şahdağ milli-etnik qrupu xalqlarına aid zəngin tarixi-etnoqrafik material toplanıb.

2006-cı ilin əvvəllərində Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramına əsasən Xınalıq kəndində yeni orta təhsil ocağı tikilib istifadəyə verilib.

### Səngərli-qalalı Qrız

Şahdağ xalqları içərisində 3 ən çoxsaylı etnik qrupdan biri də qrızlılardır. Şahdağın cənub-şərq yamacındakı Qrız kəndinin əhalisi olan qrızlar tarixən sərt təbii-iqlim şəraitində, təsərrüfat üçün torpaqların çatışmazlığı şəraitində yaşayıblar. Məhz bu səbəbdən əsrlər boyu qrızların ayrı-ayrı ailələrinin və qohum qruplarının düzənlik ərazilərə köçməsi baş verib. XIX əsrin sonlarına doğru Bakı və Yelizavetpol quberniyalarının düzən ərazilərində qrızlı əhalinin ümumi sayı təqribən 8,5 min nəfər idi. Belə köçmələrin nəticəsi olaraq Quba, həmçinin, Xaçmaz, İsmayıllı rayonlarının ərazisində 40-dək etnik kənd salınıb.

Qrızların tarixi demək olar ki, öyrənilməyib. Antik yunan alimi Strabon özünün 17 cildlik "Coğrafiya" əsərində bildirir ki, Qafqaz Albaniyasında 26 alban tayfası yaşayır və həmin tayfaların hərəsi öz dilində danışır. Qrızlar həmin alban tayfalarından biridir və o zamandan öz dilində danışırlar. Bəzi tədqiqatçılar hesab edirlər ki, qrız dilinin bir neçə dialekti var. Onların fikrincə, bu dialektlər Haput, Əlik, Cek kəndlərinin sakinlərinin danışdığı dildir. Lakin etnoqrafik materialların cəlb olunduğu başqa tədqiqatlar göstərir ki, dil baxımından yaxın olan bu xalqlar özlərini vahid bir etnik birliyə aid etmirlər.

Qədim tarixə malik Qrızda bir neçə qədim qəbiristanlıq vardır. Kənddəki "At qəbri" və qrızlıların yeganə bəyi olan Süleyman bəyin, onun ailə üzvlərinin məzarları diqqəti daha çox cəlb edir. Çar Rusiyasında 25 il hərbi qulluqda olmuş və deyilənə görə yüksək çinli zabit (bəzi məlumatlara görə general) kimi istefaya çıxmış, hökumətin bəylik tituluna layiq gördüyü Süleyman bəy Qrızlı indi də qrızlıların yaddaşında yaşayır. Bəyin oğlu Sankt-Peterburqda ali hərbi təhsil almışdı.



Qrızda dağların özü kimi sərt, enişli-yoxuşlu dağ həyəti



Qədimdən-qədim milli interyer ənənələri Qrızda bu gün də yaşayır



Qrızdakı məşhur At qəbri



Qrızda qədim məscidin qalıqları

**BİR VAXTLAR BU KƏNDDƏ 700 TƏSƏRRÜFAT OLUB, İNDİ CƏMİ 32 EV QALIB. AĞSAQQALLARIN DEDİYİNƏ GÖRƏ, DÜZƏN ƏRAZİLƏRDƏ QRIZLILAR 32 OBA SALIBLAR. ONLAR HƏMİN YERLƏRDƏ BİNƏLƏNİB, MÖHKƏMLƏNİB, TƏSƏRRÜFAT QURUBLAR VƏ HEÇ KİMİN GERİ QAYITMAQ FİKRİ YOXDUR**

Qrızda hər şey sanki bu kənddə təsərrüfatın əsasını təşkil edən iribuynuzlu heyvandarlığın uğurla yürüdülməsinə köklənib. Qrızın qayalar dibinə sığınmış evlərində-həyətlərində çəkdiyimiz fotoşəkillərdən də bunu aydın görmək olur. Təcrübəli heyvandarlar olan qrızlar, xüsusən də qrızlı qadınlar ənənəvi olaraq bir sıra toxuculuq sahələrində mahirdirlər. Qrız xalçaları xüsusilə məşhurdur. Buradakı zəngin rəng çalarları və özünəməxsus naxışlar həmin xalçaları qiymətli sənət əsəri kimi tanıdıb.

Bir vaxtlar bu kənddə 700 təsərrüfat olub, indi cəmi 32 ev qalıb. Ağsaqqalların dediyinə görə, düzən ərazilərdə qrızlılar 32 oba salıblar. Onlar həmin yerlərdə binələnib, möhkəmlənib, təsərrüfat qurublar və heç kimin geri qayıtmaq fikri yoxdur. Amma onların da çoxu evdə öz dillərində danışırlar. Tez-tez aşağılardan tarixi vətənə qonaq gəlirlər.

Tarixən kəndin əsas müdafiə qurğusu, haqqında az məlumat olan Qrız qalası, onun qismən salamat qalmış bürcləri, qala divarı hissələri, kənddəki dağılan qədim məscid buraya gələnlərin marağına səbəb olur. Danışırlar ki, bu qədim məscidin tikintisi üçün ağacları ta Xaçmaz meşələrindən buralara qədər gətiriblərmiş... Uzun zaman fəaliyyətdə olmuş məscid indi uçulmuş vəziyyətdədir. Dövlətin və yardımsevər insanların dəstəyi ilə buranın bərpa edilib həm məscid, həm də tarix-etnoqrafiya muzeyi kimi fəaliyyətə başlaması Qrıza turist axınını daha da artırar...

### Yeri gücsüz Yergüc

Yerin-torpağın gücü də, bəzəyi də insanlardır. Nə qədər ki, özlərini təbiətin bir parçası kimi görürlər, daha doğrusu, görə bilirlər, onlar Allahın yaratdıqlarından bəhrələnir, bunları daha da rövnəqləndirir, yaşayır, yaradırlar. Hansısa səbəbdən yurdla-torpaqla bu ülfət pozulursa, həmin yerlərdən köç eləməkdən başqa çarə qalmır yəqin ki. Allı-güllü, yaşıl, şirəli otların boy verdiyi uca təpələrin arxasındakı dərədə boş qalmış yurd yeri - Yergüc də indi belə acı taleyin


Yergüc bir vaxtlar bu sulu dərədə yerləşib...

**DİGƏR ŞAHDAĞLILAR KİMİ, YERGÜC KƏNDİ DƏ XÜSUSİ DİLƏ MALİKDIR. BU DİLLƏ İLKİN TANIŞLIQ ZAMANI BELƏ QƏNAƏTƏ GƏLMƏK OLUR Kİ, YERGÜC DİLİ XINALIQ DİLİNDƏN BAŞQA BÜTÜN DİGƏR ŞAHDAĞ DİL AİLƏSİNƏ MƏXSUS DİLLƏRƏ BƏNZƏYİR**


Cəmi 40 il əvvəl burada hələ də yaşayış varmış. Bəlkə yenə oldu...


Köhnə Yergücün yurd yerlərinin qalıqları hələ də qalmaqdadıq...

nişanəsidir. Hətta evlərinin daşları da demək olar ki, qalmayıb. Ad-da-budda divar qalıqlarının, daş qalaqlarının qərib-qərib qaraldığı bu çaylı dərə qoyun sürüləri üçün məgəl və heyvanların suvarılması yeri rolunu oynamaqdadır...

Əlik kəndinin şərqində yerləşən Yergüc hazırda boşdur. Deyilənə görə, kəndin son sakini 2006-cı ildə 110 yaşında vəfat edib. XIX əsrin 30-40-cı illərindən etibarən sosial-iqtisadi səbəblərdən yergüclülərin gülxatınlılar, qarabığlılar və təhməzlilər kimi nəsilləri tədricən məskənlərini tərk edərək Xaçmaz şəhərinin qərb civarında eyni adlı kənd salıblar. Bundan savayı yergüclülər Quba, Bakı və Sumqayıtda yaşayırlar.

Digər şahdağlılar kimi, Yergüc kəndi də xüsusi dilə malikdir. Bu dillə ilkin tanışlıq zamanı belə qənaətə gəlmək olur ki, Yergüc dili Xınalıq dilindən başqa bütün digər Şahdağ dil ailəsinə məxsus dillərə bənzəyir. Lakin əksər sözlərdə ən azından bir və ya bir neçə hərf fərqi var. Bəzən isə söz tamamilə digər xalqların sözlərindən fərqli olur, onların istifadə etdiyi kəlmələrə qətiyyən bənzəmir. Bundan başqa, Yergüc dilində xınalıqcadakı sözlərə bənzər bir sıra söz var və bu cəhət Yergüc dilini Buduq, Qrız, Əlik, Haput və Cek dillərindən bir az fərqləndirir.

Yergüc, Qrız, Haput, Əlik, Cek və Buduq xalqları öz ana dillərində bir-birləri ilə çox rahat ünsiyyət saxlaya bilirlər. Lakin təəssüf ki, bu dil də məhv olmaq təhlükəsi ilə üz-üzə qalıb. Belə ki, hazırda Yergüc dilini yalnız yaşlı yergüclülər bilir. Gənclərin çoxunun isə bu dil haqqında heç təsəvvürləri belə yoxdur. Yeri gəlmişkən, deyək ki, hazırda bu, xınalıqlılar xaric bütün Şahdağ qrupu xalqlarının üzləşdikləri acınacaqlı vəziyyətdir. Amma internetdə ara-sıra rast gəlinən şərh-yazılardan belə görünür ki, yergüclülərin gənc nəsilləri öz keçmişlərindən qopmayıblar, patronomik bilgiləri yaşadır, nəsilləri, məhəllələri xatırlayır, boş qalan yurd yerini unutmamağa çalışırlar...

**Şövkət Səlimov**
jurnalist

Fotolar müəllifindir